# COĞRAFİYA

## AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZMİN MÜASİR PROBLEMLƏRİ

**H.B.SOLTANOVA**
***Bakı Dövlət Universiteti***

*Azərbaycanda turizmin formalaşması tarixi, müasir durumu və inkişafı ilə bağlı problemlər (maddi-texniki bazanın zəif olması, investorların cəlb olunmasında maneələr, xidmətin beynəlxalq standartlara cavab verməməsi, kadr hazırlığının tələbatı ödəməməsi, kurort-istirahət yerlərindən düzgün istifadə olunmaması və s.) mövcuddur. Bu sahədə Respublika hökuməti mühüm işlər görür. Məqalədə problemlər ümumi halda şərh edilir və bunların aradan qaldırılması üçün təkliflər irəli sürülür.*

Azərbaycanda turizm müasir həyat tərzinin mühüm atributu, həm də respublikanın beynəlxalq əlaqələrinin forması kimi inkişaf etdirilir.

Xatırladaq ki, dünya ölkələrinin bir çoxunda turizm sektoru iqtisadiyyatın aparıcı sahəsinə çevrilmişdir. Fransa, İspaniya, İsveçrə, Avstriya, Türkiyə və digər ölkələrin dövlət büdcəsinin xeyli hissəsi turizmdən daxil olan gəlir hesabına formalaşır. Bu ölkələrin turizm fəaliyyəti sahəsindəki təcrübələri respublikamızda müvafiq sektorun inkişafı məqsədilə nümunə kimi seçilə bilər, çünki, Azərbaycan Respublikasının əlverişli geosiyasi və coğrafi mövqeyi, təbiətinin füsünkarlığı və landşaftının müxtəlifliyi, müalicəvi əhəmiyyətli mineral suları və palçıqları, rekreasiya cəhətdən yararlı dəniz sahilləri, zəngin tarixi – mədəni irsi, Azərbaycan xalqının qonaqpərvərliyi, adət – ənənələri və digər amillər turizm sektorunun inkişafı üçün geniş imkanlar açır.

Bu amillər hələ XX əsrin əvvəllərində nəzərə alınmış, qiymətləndirilmiş və təsadüfi deyildir ki, Azərbaycanda mütəşəkkil turizmin tarixi də məhz 1908-ci ildən qəbul edilir.*

1920-ci illərdən başlayaraq Azərbaycanın turizm imkanlarından ümumittifaq və beynəlxalq miqyasda istifadə məqsədilə müxtəlif struktur təşkilatlar yaradılır («Proletar Turizm Cəmiyyəti», «Sovtur», «İnturist», «Azərbaycan turizm – ekskursiyalar idarəsi» və b.).

Bu təşkilatlar o dövrün tələblərinə müvafiq olaraq müxtəlif məzmunlu ekskursiyaları təşkil edirdilər. Turizm təşkilatları və bürolarının mühüm funksiyalarından biri də respublikanın daxili bölgələri və uzaq

---

* 1908-ci ildə Krım – Qafqaz dağ klubunun filiallarından biri Bakıda açılmışdı. Klubun Bakı bölməsinin qarşısında duran vəzifə Qafqazda turizm tədqiqat işlərinin aparılması, ekskursiya və turların təşkili idi.

məsafələrə turlar təşkil etmək idi.

1960-cı illərdən sonra turizmin maddi-texniki bazasının yaradılmasında mütərəqqi dəyişikliklər baş verdi. 80-ci illərədək Nabran, Bakı, Gəncə, Sumqayıt, Zaqatala, Şuşa, Qəbələ və Xaçmazda turist bazaları yaradıldı.

Azərbaycan Respublikasında turizmin inkişafında 1983-cü il yadda qalan il olmuşdur. Həmin ildə SSRİ Nazirlər Sovetinin I müavini H.Əliyevin təşəbbüsü ilə Nazirlər Soveti «Xəzərin Azərbaycan sahillərində ümumittifaq əhəmiyyətli kurort zonasının yaradılması haqda» fərman vermişdi. Bundan sonra Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə (1984-cü il, 2 oktyabr) «Azərbaycan Respublikasında 2000-ci ilədək turizmin inkişafı sxemi» qəbul olundu. Qəbul olunmuş proqrama əsasən 1990-cı ilədək 7700, 2000-ci ilədək isə 21300 müxtəlif turizm obyektləri tikilməli idi. Bu obyektlərin 60 faizi Xəzər sahillərində, qalanı respublikanın digər bölgələrində yaradılmalı idi. Əfsuslar olsun ki, həm obyektiv, həm də subyektiv amillər bu layihənin reallaşmasına imkan vermədi.

Azərbaycan Respublikasının müstəqilliyi dövründə turizm və onunla əlaqəli sahələrin inkişaf etdirilməsinə böyük maraq ondan irəli gəlir ki, turizm ilk növbədə respublika iqtisadiyyatında gəlirli sahəyə çevrilə bilər; ikincisi, əhalinin müxtəlif məqsədli, həm də səmərəli istirahətinin təşkilində, məşğulluq probleminin həllində mühüm rol oynaya bilər; üçüncüsü, Azərbaycanın digər ölkələrlə əlaqələrinin coğrafiyasının genişləndirilməsinə səbəb ola bilər.

Turizmin səmərəli təşkili və davamlı inkişafı üçün respublikadakı imkanlar təminatın yarısını təşkil edirsə, bu təminatın qalanı dövlətin turizm siyasətindən asılıdır. Turizm sahəsində yaranmış problemləri nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin qərarı ilə Gənclər və İdman Nazirliyi Gənclər, İdman və Turizm Nazirliyinə çevrildi.* GİTN turizm sahəsində yaranmış vəziyyətdən çıxış yolu axtarmağa, respublika turizmini beynəlxalq standartlar səviyyəsinə qaldırmağa, Azərbaycanın dünya turizm bazarına çıxmasına imkan yaratdı. Azərbaycan Ümumittifaq Turizm Təşkilatının üzvülüyünə qəbul olundu (2001-ci il, 25 sentyabr, Seul).

Respublikada turizmin inkişafını sürətləndirmək məqsədilə müxtəlif funksiyaları yerinə yetirmək iqtidarında olan Azərbaycan Turizm Sənayesinin İnkişafı İttifaqı (ATSİİ) yaradıldı (2001-ci il). ÜTT-nın UNESKO ilə əməkdaşlığı sayəsində bərpa edilən «Böyük ipək yolu» transkontinental marşrutuna Azərbaycan daxil edilmişdir. Təkrarsız tarixi və mədəni abidələri ilə zəngin olan Azərbaycanda «Mədəni irsin mühafizəsi» layihəsi Dövlət proqramı çərçivəsində reallaşdırılır.

Azərbaycanda turizm sahəsində əsaslı dəyişikliklər XXI əsrin əvvəllərinə təsadüf edir. Respublika prezidentinin 18 aprel 2001-ci il tarixli fərmanı 27 avqust 2002-ci il tarixli sərəncamı ilə 2002-2005-ci illər üçün turizmin inkişafının Dövlət Proqramı təsdiq edilməklə turizm potensialından səmərəli istifadə olunmasına şərait yarandı. Respublikada turist marşrutlarının yaradılması işinə başlandı. Beynəlxalq standartla-

---

* Azərbaycan Respublikası Prezidentinin 30 yanvar 2006-cı il tarixli fərmanına əsasən GİTN və Mədəniyyət Nazirliyi ləğv edilmiş, onların əvəzinə Mədəniyyət və Turizm Nazirliyi və Gənclər və İdman Nazirliyi yaradılmışdır.

ra cavab verən 4 əsas (Bakı – Xaçmaz, Bakı – Astara, Bakı – Balakən, Bakı – Qazax) və üç əlavə (Bakı – Abşeron yarımadası – Qobustan, Bakı – Naxçıvan, Bakı – Şuşa) marşrutlarının yaradılması məsləhət görülmüşdür.

Azərbaycan Respublikasının regionlarının 2004 – 2008-ci illərdə inkişafının Dövlət proqramı»nda da turizm potensialına malik bölgələrdə bu sahənin inkişaf etdirilməsinə aid müddəalar öz əksini tapmışdır.

Azərbaycan regionlarının iqtisadi inkişafının mühüm istiqamətlərindən sayılan turizm, beynəlxalq təşkilatları da maraqlandırır. Belə ki, ABŞ-ın Ticarət və İnkişaf Agentliyinin (USTDA) maliyyə dəstəyi ilə Caspian Gruop Consulting və PA Consulting şirkətləri tədqiqat qurupu Azərbaycanın mühüm turizm bölgələrində olmuş və «Azərbaycanda turizm strategiyasının inkişafı» üçün layihə hazırlanmışlar. Tədqiqat qurupu birinciliyə malik təyinat yeri kimi Quba-Xaçmaz, Şəki-Zaqatalanı seçmiş, turizmin zəif və güclü tərəflərini təhlil edərək təkliflərini vermişlər.

Dövlət Proqramının həyata keçirilməsi mexanizmi maddi-texniki bazanın inkişafı üçün tədbirlər sisteminin, təşkilatı-maliyyə sxemlərinin işlənilməsini tələb edir və bu məqsədlə respublikada müvafiq təşkilatlardan mütəxəssislərin cəlb olunduğu işçi qrup fəaliyyət göstərir.

Qeyd olunan bu mühüm işlərlə yanaşı Azərbaycan turizmi hələ arzu olunan səviyyədə deyildir. Bu sahədə əsas problemlərdən biri kurort – istirahət yerlərindən düzgün istifadə olunmamasıdır. Respublikada 90-cı illərin axırlarında 98 kurort-sanatoriya obyekti fəaliyyət göstərirdi. Bu günün reallığı isə onu sübut edir ki, Abşerondakı kurort-sanatoriya müəssisələrində (Bilgəh, Buzovna, Zağulba, Pirşağı və b.) məskunlaşdırılmış məcburi köçkünlər hələ də qalmaqdadır. Bununla əlaqədar obyektlərin 10 faizindən müalicə, istirahət və turizm məqsədləri üçün istifadə olunmur. Mövcud sanatoriya-kurort şəbəkəsi və istirahət mərkəzləri əhalinin tələbatını tam ödəmir. Bu tələbatı ödəmək üçün Abşeronun kurort-rekreasiya sərvətləri ilə yanaşı Yalama–Nabran, Hacıkənd, İstisu, Pirqulu, Qalaaltı və b. yerlərin potensial imkanlarından səmərəli istifadə olunmalıdır.

Azərbaycanın turizm bazarının müasir durumuna nəzər salaq*:

- Azərbaycana gələnlərin sayı, min nəfərlə – 1777
  o cümlədən:
  xarici turistlərn sayı, min nəfərlə – 923
- turistlərdən daxil olan vəsait, mln. doll. – 510
- xalis gəlir, mln. doll. – 77,7
- mehmanxana və mehmanxana tipli müəssisələrin sayı – 238
- yerləşmə müəssisələrində nömrələrin ümumi sayı – 9827
- il ərzində gecələyənlər – 929351
- mehmanxanalardan əldə olunan gəlir, mlrd. man. 54,4
- lisenziya almış şirkətlərin sayı – 224
- turizm fəaliyyətilə məşğul olanlar – 58

2005-ci ildə Azərbaycana səfər edənlərin təqribən 48 faizi turist

---

* Məlumatlar ÜTT-nın və Azərbaycan Respublikası Dövlət Stastika Komitəsinin materiallarına əsaslanır.

təşкilatları xəttilə gəlməmiş və turist кimi qeydə alınmamışlar (bunlar respubliкada təhsil alan xarici ölкə vətəndaşları, müxtəlif sahələrdə fəaliyyət göstərən iş adamları və s.-dir). Turizm fəaliyyətindən əldə olunan xalis gəlir respubliкada bu seкtorun inкişafı üçün sərf olunmağa yönəldilir. Laкin bu vəsait turizmin beynəlxalq standartlar səviyyəsində inкişafına nail olmaq, onu iqtisadiyyatın qabaqcıl sahəsinə çevirməк üçün çox azdır və «dənizdə damla» təsəvvürü yaradır. Bu baxımdan höкumətin investisiya siyasəti xüsusi əhəmiyyət кəsb etməlidir. Dünyanın bir sıra iri şirкətləri Azərbaycan iqtisadiyyatına sərmayə qoymağa maraqlıdırlar.

Turizm infrastruкturunun beynəlxalq standartlara cavab verməsi yerləşmə müəssisələrində daha qabarıq nəzərə çarpır. Xarici investorların yardımı ilə Baкıda yenidən qurulmuş ilк obyeкtlərdən biri Naxçıvan mehmanxanasıdır. ABŞ-ın «Hyatt İnterneşnl» və Türкiyənin «Remкo Əmlaк» şirкətlərinin sərmayələri hesabına Naxçıvan mehmanxanası müasirləşdirilmiş və «Naxçıvan Hyatt Recensi» 5 ulduzlu otelinə çevrilmişdir.

Türкiyənin «Ferкo» şirкətinin кöməyilə «Grand Otel Avropa» mehmanxanası tiкilmişdir. Baкıda əsasən xarici turistləri qəbul edən digər otellər də vardır кi, bunlar xarici investorların fəaliyyəti ilə tiкilmişdir (Parк Hyatt, Kresent–Biç, Redisson SAS Plaza, Oazis, Ciry Mansion, Diplomat və b.).

Xarici investisiya hesabına tiкilmiş mehmanxanalar əsasən Baкı şəhərindədir. Digər bölgələrə sərmayə qoymaq istəyənlərin az olması təsadüfi deyil. Bu, bir tərəfdən respubliкa ərazisinin 20 faizinin erməni işğalı altında olması ucbatından investorların inamsızlığı, digər tərəfdən onları cəlb etməк üçün təbliğat mexanizminin zəif olması ilə izah oluna bilər.

Təbliğat vasitəsi кimi reкlamın rolu böyüкdür. Mədəniyyət və Turizm Nazirliyi (əvvəllər GİTN) turizm informasiyası və təbliği sahəsində müəyyən işlər görür. Respubliкada 2001-ci ildən «Azerbaijan REVİEW» jurnalı, «Turizm yeniliкləri» qəzeti nəşr olunur, «Welcome to Azerbaijan» кompaкt disк hazırlanmış, internet ünvanında Azərbaycan turizmini əкs etdirən sayt açılmış, Baкı və 7 əyalət şəhərində (Şamaxı, Quba, Xaçmaz, Şəкi, Gəncə, Naxçıvan, Lənкəran) turizm informasiya mərкəzlərinin yaradılmasına başlanılmışdır.

Turizmin təbliğində turoperator və turagent fəaliyyəti ilə məşğul olan şirкətlərin rolu da böyüк olmalıdır. Respubliкada Mədəniyyət və Turizm Nazirliyində lisenziya almış 243 şirкətdən (2007-ci il) çoxu fəaliyyət göstərmir. Turoperator fəaliyyəti göstərən şirкətlər – «İmprotex Travel», «Azal», «Kaspian Travel», «Evroturizm», «Baкu – Tour», «Si LTD», «BTİ Azerbaijan», «Karvan» və b. misal göstərməк olar. Bu şirкətlərin əкsəriyyəti xarici ölкələrə turist göndərməкlə məşğul olurlar*. Turizmin təbliğinin mühüm istiqamətlərindən biri də respubliкanın turizm sərgilərində fəal iştiraкıdır.

Baкıda beynəlxalq turizm sərgiləri hər il təşкil edilir. Mosкva, BƏƏ-də кeçirilmiş turizm sərgilərində respubliкanın bəzi turizm şirкət-

* Azərbaycandan xarici səfərlərə gedənlərin sayı 1473 min nəfər təşкil etmişdir. Gedənlər respubliкadan 128,7 mln. doll. çıxarmışlar (2005).

ləri də iştirak etmişlər. Turizm şirkətləri respublikaya turist cəlb etməkdə işlərin ləng getməsini infrastrukturun müasir vəziyyətində, dövlətin reklam siyasətində, qiymətlərin tənzimlənməsində görürlər.

Xarici turistlərin[*] Azərbaycana cəlb olunması turizm bazarında etibarlılıq, qiymət (vergi) və təhlükəsizlik atributlarının sərfəli olmasını tələb edir. Azərbaycanda fəaliyyət göstərən 4 və 5 ulduzlu mehmanxanalarda bir sutka gecələmək üçün orta göstərici 250 – 280 dollar təşkil edir. Digər tərəfdən, turistlərə göstərilən xidmət bəzi mehmanxanalar, əyləncə müəssisələri istisna olmaqla aşağı səviyyədədir (xüsusilə bölgələrdə). Bu isə turizm qarşısında digər problemin – kadr hazırlığının hələ turizm bazarının tələblərinə cavab verməməsində aydın hiss olunur.

Doğrudur, inkişaf etməkdə olan turizm sektorunu ixtisaslı kadrlarla təmin etmək məqsədilə 2000-ci ildən respublikanın bir neçə ali təhsil müəssisəsində «turizm və sosial – mədəni servis» ixtisası üzrə mütəxəssis hazırlanır. 2006-cı ildən isə Bakı Turizm İnstitutu fəaliyyətə başlamışdır. Burada «turizmin marketinqi», «turizmin menecmenti» və «turizm və sosial – mədəni servis» ixtisasları üzrə ali təhsilli mütəxəssislərin hazırlanmasına başlanılmışdır. Lakin turizm sektorunda səriştəli gid – tərcüməçilər, ekskursiya rəhbərləri, ofisiant və digər peşəkar işçilərə böyük ehtiyacın olduğunu da nəzərə almaq vacibdir. Bu sahədə müəyyən işlər görülsə də, tələbat ödənilmir.

Azərbaycanda daxili turizmin inkişafına diqqət artırılmaqdadır. Respublikamızın iş adamları turizm – istirahət obyektlərinin tikintisinə səy göstərir. Bunu Quba – Xaçmaz, Şəki – Zaqatala bölgələrində kiçik və orta bizneslə turizm fəaliyyəti ilə məşğul olan yerli sahibkarların misalında göstərə bilərik. Lakin bu fəaliyyətin sürətləndirilməsi dövlət tərəfindən stimullaşdırılmasını, müvafiq infrastrukturun (yollar, su, enerji təchizatı və s.) inkişaf etdirilməsini tələb edir.

Beləliklə, respublikada turizmin ümumi, həm də ən mühüm məsələlərindən bəhz edildi. Bu sahədə görülən müsbət işlərlə yanaşı həllini gözləyən problemlər şərh edildi. Bunları aradan qaldırmaq məqsədilə aşağıda göstərilənləri təklif edirik:

- erməni işğalı altında olan torpaqların azad edilməsi və həmin bölgədə kurort – istirahət fəaliyyətinə yenidən başlanılması;
- turizmin maddi – texniki bazasının möhkəmləndirilməsi;
- hökümətin sərmayə qoyuluşunda dəstəyinin qazanılması (xarici, yerli və müştərək istiqamətlərdə);
- kurort – istirahət yerlərindən düzgün istifadə olunması və bu sahədə bələdiyyələrin funksiyalarının gücləndirilməsi;
- turist şirkətlərinin beynəlxalq sərgilərdə iştirakının fəallaşdırılması;
- qiymətlərin tənzimlənməsində dövlətin rolunun artması (vergilərin azaldılması, uzun müddətə kredit verilməsi və s.);
- informasiya və təbliğat bazasının formalaşmasının sürətləndirilməsi;
- turizm təhsilinin təkmilləşdirilməsi;

[*] Hesablamalara görə bir nəfər xarici turist gəldiyi ölkədə gündə orta hesabla 70 – 80 dollar xərcləyir.

- daxili turizmin inкişaf etdirilməsi;
- turist marşrutlarının sxeminin yenidən işlənilməsi, yeni məzmunlu marşrutların (turların) hazırlanması;
- turizmin inкişaf sxeminin reallaşdırılması və yeni obyeкtlərin bu sxemə görə tiкilməsi;
- Dövlət miqyaslı Məqsədli Turizm Proqramının reallaşdırılması.

Göstərilən ümumi və digər məsələləri ardıcıl həyata кeçirməклə Azərbaycan turizmi ölкənin iqtisadi və sosial inкişaf siyasətinin mühüm istiqamətinə çevrilə bilər.

**СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ ТУРИЗМА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ**

**Г.Б.СОЛТАНОВА**

**РЕЗЮМЕ**

В Азербайджане существуют проблемы (слабая финансово-техническая база, препятствия в привлечении инвесторов, несоответствие услуг международным стандартам, несоответствие подготовленности кадров, неправильное использование отдыхо-курортных мест и т. д.) связанные с формированием истории, с развитием и современным состоянием туризма. Правительство республики ведет важные работы в этом направлении. Проблемы в статье даются в общем виде и для их решения выдвигаются предложения.

**THE MODERN PROBLEMS OF TOURISM IN AZERBAIJAN**

**H.B.SOLTANOVA**

**SUMMARY**

There exist the problems of the history of formation of tourism, its modern situation and development (weakness of the technical basis, the obstacles in attracting investors, non exictance of services to international standards not using resotrs rightly). The government of the republic does a lot of important work in this field. In the arcitle the problems are explained generally and given suggestions for lifting them.